**Valyuta risklərinin idarə olunması**

Valyuta riski – Bankın xarici valyutada fəaliyyət sahəsindən və aparılmış əməliyyatların sayı və həcmindən asılıdır. Valyuta riskinin dəyərləndirilməsi üçün bankın xarici valyuta balansında (Açıq Valyuta Mövqeyi/AVM) aktiv və passivlərin strukturu müqayisə edilir. AVM-in hesablanması qaydası Azərbaycan Respublikasının Mərkəzi Bankının "Azərbaycan Respublikasının müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi Qaydaları" ilə aparılır. Mərkəzi Bankın tələblərinə əsasən hər bir valyuta üzrə ayrılıqda açıq valyuta mövqeyinin gün sonuna dəyərinin bank kapitalının 10%-ni, bütün valyutalar üzrə məcmu açıq valyuta mövqeyinin isə bank kapitalının 20%-ni keçməməlidir.

Valyuta risklərini minimumlaşdırmaq üçün Bankımız aşağıdakı vasitələrdən istifadə edir:

- Mərkəzi Bankın tələblərinə riayət olunması
- Aparılmış əməliyyat nəticəsində Bankın uzun/qısa mövqeyinin yaranması zamanı bu mövqeyin vaxtında əks əməliyyat ilə bağlanması
- Forvard (forward) əməliyyatları
- Svop (swap) əməliyyatları
- Stop Loss etc

**Açıq Valyuta Mövqeyi, %**

| Valyutalar | 31 Mart 2016 | 30 Iyun 2016 | 30 Sentyabr 2016 |
|---|---|---|---|
| USD | (7.01) | (6.00) | (0.29) |
| GBP | 0.05 | 0.03 | 0.05 |
| CHF | 0.03 | 0.02 | 0.07 |
| SEK | 0.01 | 0.01 | 0.01 |
| NOK | 0.00 | 0.00 | 0.00 |
| CAD | 0.02 | 0.00 | 0.00 |
| JPY | 0.01 | 0.01 | 0.01 |
| RUB | 0.02 | 0.01 | 0.02 |
| AUD | 0.02 | 0.01 | 0.00 |
| EUR | (0.11) | (0.73) | (0.02) |
| TRY | 0.14 | 0.18 | 0.09 |
| **SDV üzrə məcmu AVM** | **(7.11)** | **(6.73)** | **(0.30)** |
| **Qapalı Valyutalar üzrə məcmu AVM** | **0.16** | **0.19** | **0.11** |